BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# PSİXOLOGİYA

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ SEPARATİZMİN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

**İ.M.BAYRAMOV**

***Bakı Dövlət Universiteti***

Qloballaşma prosesi nəticəsində bütün dünyada iqtisadi, mədəni və maliyyə əlaqələrinin intensivliyinin və həcminin genişlənməsi və artması hesabına biz indi «məkanların fəzasında» deyil, «axınların fəzasında» yaşayırıq, fəza «daralır», zaman «yoxa çıxır», dünya vahid hadisəyə çevrilir. Lakin bəşəriyyət öz mövcudluğunun ən mürəkkəb dövrünə qədəm qoyur. Burada dünya həm təşkil olunmaqda, həm xaosa doğru irəliləməkdədir: o, qloballaşır və lokallaşır; birləşir və ayrılır. Yəni dünyada təzadlı proseslər gedir. Belə bir fikir hakim mövqe qazanır ki, milli sərhədlər transmilli kampaniyaların təzyiqi altında «şəffaflaşmağa» başlayar, yerli mədəniyyətlər isə Qərbin təqdim etdiyi unifikasiyaedici moda və innovasyon tendensiyalar əsasında eyniləşməyə məruz qalırlar.

Lakin tamamilə əks istiqamətli tendensiyalar da mövcuddur - dağıdılmış sərhədlərin yerinə ən müxtəlif xarakterli yeni sədlər formalaşır, buna misal olaraq iqtisadi baxımdan inkişaf etmiş ölkələrdəki «etnik oyanışı» göstərmək olar. Burada sanki «təsir əks təsir doğurur» və dünya tarazlığını itirir, separatizmin yeni-yeni formaları yaranır.

E.Giddens hesab edir ki, «Etnik antoqonizmin əksər təzahürlərinin başlıca toplananları qrup maneələri və resurslardan imtiyazlı şəkildə bəhrələnmədir» (3). Transmilli korporasiya və maliyyə «alverçilərinin» təhrik etdiyi qloballaşma prosesləri bəşəriyyəti «beşdə bir» cəmiyyətinə doğru aparır. Bu cəmiyyətdə əhalinin 80%-nin işi olmayacaq və o varlı 20%-in xeyriyyəsi hesabına yaşayacaqdır. Bu təmayül yeni sosial maneələr və mədəni parçalanmalar yaratmaqla artıq sənaye baxımından inkişaf etmiş ölkələrin özündə belə antiqlobalist hərəkatlar yaratmışdır.

Bundan başqa ABŞ və Qərbi Avropa əsasən «üçüncü dünya» ölkələrindən gəlmiş emmiqrantlar hesabına az qala polietnik cəmiyyətlərə çevrilmişdir. M.Bernal və Q.Naytın fikrincə, «Ən yaxın gələcəkdə hər dördüncü amerikalı özünü etnik azlığa aid edəcək» (6). İndi maraqlıdır qərb sivilizasiyası zorakılıq etmədən və insan hüqüqlarını pozmadan on milyonlarla digər sivilizasiya nümayəndələrini mədəni assimilyasiya edə biləcəkmi? Hələlik isə milyonlarla vətəndaş təkcə antiqlobalist hərəkatlarda deiyl, ksenofobiya, separatizm və qapalılıqda xilas axtarırlar.

Məşhur Amerika iqtisadçısı Lester Turou separatizmin sosial-psixoloji əsası barədə düşünərkən yazır: «Əhali nəfərinə düşən real məcmu məhsulun artmasına baxmayaraq ABŞ-da 80% muzdlu işçi qüvvəsinin real əmək haqqı azalmaqdadır və orta statistik zəhmətkeş bu oyunun

müsbət sonunu görmür. O, bu oyunu mənfi sonluqla təsəvvür edir; bu zaman uduzanlar udmuşlardan qat-qat çox olacaq. Onun ətrafında yaxşı iş yerlərinin çatışmazlığı mövcuddur və onun həmvətənlərinin əksəriyyəti real əmək haqqının azalmasından əziyyət çəkirlər və o, başqaları ilə iqtisadi həyat uğrunda mübarizə aparmalıdır. Və bu mübarizədə ona müttəfiqlər kimi düşmənlər də lazımdır ki, onun əlindən yaxşı iş yerlərini qoparıb alsın. Bu səbəbdən də orta zəhmətkeş etnik separatizmə meyllidir» (5). Bir də ki, siyasətçilərin nitqləri də onların qorxu və fobiyalarını təsdiqləyir: «Bütün iqtisadi çətinliklərin günahı sizdə deyil «özgələrdə», əcnəbi işçilərdədir. Onların dili, etnik və irqi mənşəyi də bizə yaddır. Və onların öhdəsindən gəlsək hər şey öz-özünə yaxşılaşacaq». Təxminən bu məzmunda çıxışları indi həm ABŞ, həm də Avropa siyasətçilərinin dilindən eşitmək olar. Lakin qloballaşmaya qarşı bu irrasional protest «qızıl milyarda» düşməmiş ölkələrdə yetişən hiddət və kinlə müqayisədə heç nədir. Məsələyə bu yönümdə nəzər saldıqda, ayrı-ayrı regionlarda müxtəlif etnosların marginallaşması aspektində hansı qorxulu problemlər, fəsadlar yaranacağını təsəvvür etmək çətin deyildir.

Eyni vaxtda baş verməsi səbəbindən (modernizasiya, milli quruculuq və qloballaşma) problem və ziddiyyətlər iqtisadi və siyasi autsayder hesab olunan ölkələrdə daha çox qabarmaqdadır. Dünyanın cəlbedici standartlarına şirniklənən lakin buna nail olmaq üçün real siyasi iqtisadi və sosial resurslara malik olmayan cəmiyyətdə kütləvi frustrasya halları yaranır və bu da milli, sivilizasyon, yaxud konfession düşmən axtarışlarına səbəb olur. Qeyd edək ki, çox vaxt iqtisadi sürüşmələrdən fərqli olaraq etnik və dini materiyadakı çatlar uzun müddət nəzərə çarpmır. «Qan və mənşə ruhdadır, bədəndə deyil. Məsələ onda deyil ki, «kimlər bizə aiddir», məsələ ondadır ki, «biz» anlayışının özü çox vaxt mahiyyətli olduğu dərəcədə başqaları üçün sezilən olmur» (5).

Cəmiyyətin keçid dövrü ilə millətçilik və dini fundamentalizmin yüksəlişi arasında dayanıqlı korrelyasiya mövcuddur. Təsadüfi deyildir ki, E.Hobsbam iddia edir ki, «milliyyətçi hərəkatlar adətən o regionlarda və ola bilsin ki, ölkələrdə» kök salır ki, orada modernləşmə özünü kifayət qədər ifadə etmişdir ki, problemlər yaratsın, amma bu hələ o həddə çatmamışdır ki, problemlərin həllini təklif edə bilsin (7).

Radikal dəyişikliklər dövrü – ümumi inamsızlıq dövrüdür. Ona görə də dəyişikliklərdən uduzan, yeni qlobal dünya qarşısında qorxu hissi keçirən insanlar ənənəvi, fundamental – dini və etnik dəyərlərə müraciət etməli olurlar. «İnsanlar öz real dünyalarının iqtisadi inamsızlığından hər hansı bir dini dünyanın inamına pənah gətirirlər. Və burada onlara deyirlər ki, əgər onlar yazılmış qaydada boyun əysələr hökmən xilas olacaqlar», -deyə Turou ümumiləşdirir (7). Yəni qloballaşmanın tələblərinə adaptasiya imkanlarının olmaması xilas yolu kimi dini və etnik dəyərlərə söykənməyə və onun doğurduğu inamsızlıqdan sığortalanmağa, sonda isə millətçiliyə meyllik yaranır. Millətçilik də öz xilas yolunu təşkil edir, hesab edir ki, modernləşmə və qloballaşmanın doğurduğu «azad olma prosesinin» çətinliklərini kompensasiya etmək iqtidarındadır.

«Üçüncü dünyadakı» antiqərb üsyanı həmçinin sekulyar dövlətə qarşı yönəlmişdir. Nə qədər müasir görünsə də, qərblə müqayisədə fərqli mədəniyyətlər üçün bu dövlət tipi yabançı bir institut olaraq qaldı.

Asiya və Afrikada götürülmə və zəif siyasi institututların və milli simvolların fasadının arxasında ənənəvi tayfa və xalqlar dünyası durur və dəyişikliklər kvazimilli dövləti transformasiya etmək iqtidarında olmur.

Öz azadlıq mübarizələrində «üçüncü dünya» ölkələri milli dövlət statusu almaq və beynəlxalq birliyə suveren və tam hüquqlu üzv olmaq məqsədi qoyurdular. Üçüncü minilliyin əvvəlində isə gələn yüzillikdə qərb standartları ilə yaradılmış beynəlxalq nizamın mövcudluğunun özü şübhə altına alındı.

Müasir islam müəllifləri, panərəbizm ideologiyasının tərəfdarları da həmçinin qərb zəbtçiliyinin əsasında yaranmış (onların fikrincə) mövcud dünya nizamını qəbul etmirlər. Onlar sekulyar milli dövləti rədd edir və xilafət ideyasına – «ideal islam dövləti»nə qayıtmağa çağırırlar. Ona görə də qərbin siyasi inkişaf modelini inkar edən islam fundamentalizminin siyasi nüfuzu artmaqdadır. Asiya və Afrikanın ilk növbədə müsəlman dövlətləri bu gün etnikləşmə prosesini yaşamaqdadırlar. Əvvəlki metropoliya ölkələrdən götürülmüş milli – dövlət identikliyinin yerinə indi məhz etnik və konfessional birlik formaları gəlməkdədir. Qərbin sırıdığı qloballaşma dünyanın bu regionlarında sonrakı mövcudluğa təhlükə kimi qiymətləndirilir ki, bu təhlükədən onlar ənənəvi dini və etnik birliklər vasitəsi ilə çıxmağa çalışırlar.

Bununla, bir tərəfdən, lokal mədəniyyətlər arasında fərqlər kəskinləşir, digər tərəfdən isə islam ölkələri ilə Qərb arasında sivilizasyon münaqişə dərinləşir. Somali, İraq, İran, Sudan və Əfqanıstanın nümunəsi bu fikrə gözəl əyani sübutdur (1).

Etnosiyasi və fundamentalist mobilizasiyanın aqressiv enerjisi aşağıdakı əsas istiqamətlərdə axa bilər:

a) əksəriyyətin içərisində yaşayan və identifikasiya olunan azlığa qarşı;

b) qonşu etnoərazi qurumlarına qarşı (torpaq iddiası ilə);

c) imperiya mərkəzinə, yaxud hakim milli qrupa qarşı;

d) başqa sivilizasiyaya (konfessiyaya) mənsub qonşu xalqa (ölkəyə) qarşı;

e) «qloballaşma şərinin» təmsilçisi Amerika Birləşmiş Ştatları və bütövlükdə «Qərbə» qarşı.

Bu aqressiv enerji müxtəlif qəbildən olan hadisələr doğurmaqla (etnik münaqişələr, torpaq və ərazi iddiaları, hakimiyyət dəyişikliyi, terrorizm, ciddi fəsadlara səbəb ola bilər.

Milli xarakterli sosial-fəlsəfi problemlərin araşdırılması zamanı millətçilik, şovinizm, separatizm və rasizm kimi terminlərdən istifadə olunur. Onlar bütöv bir sıra təşkil edir və yaxın mənalara malikdirlər. Bu səbəbdən də bu anlayışların məzmununu dəqiqləşdirməyə ehtiyac duyulur.

Məsələyə, sırf elmi tərəfdən yanaşıldıqda millətçiliyi öz ölkəsinin maraqlarına aqressiv bağlılıq, yaxud fanatik patriotizm kimi müəyyən etmək olar. Təcrübədə isə (şəxsi fikrin bildirilməsindən və ictimai çıxışlardan tutmuş zorakılığın tətbiqinə qədər) öz millətinin hüquqlarının digər millətin analoji hüquqlarından üstünlüyü hadisəsidir.

Şovinizm anlayışı Avropa leksikonuna Napoleon dövründən sonra daxil oldu. İmperator qvardiyasının əsgəri Nikolas Şoven imperiyanın

əvvəlki böyüklüyünün bərpasının elə qızğın tərəfdarı idi ki, onun adı sonradan məcazi məna kəsb etməyə başladı.

Rasizmə gəldikdə isə bu, bir irqin digərləri üzərində üstünlüyü ideyasıdır. Praktiki olaraq ksenofobiya da eyni məzmun kəsb edir.

Separatizm (latın sözü separatus – ayrıca) bu və ya digər polietnik yaxud federal dövlətin tərkibində azlıq təşkil edən xalqın dövlətin mənsub olduğu xalqla yanaşı özünütəyinetmə hüququna və öz dövlətçiliyini qurmağa olan meylidir. Marksist-leninçi frazeologiyada separatizmlə milli-azadlıq hərəkatı arasında kateqorial ziddiyyət mövcud idi. Sosialist dövləti daxilində eyni meyl separatizm, kapitalist dövləti daxilində isə (məsələn, Türkiyədəki PKK kürd separatizmi) milli-azadlıq hərəkatı kimi qiymətləndirilirdi.

Beləliklə, milli-azadlıq hərəkatı müsbət, mütərəqqi, xalqların antikolonial, antiimperialist mübarizəsinin ifadəsi kimi qavranılırdı (məsələn, Şərqi Pakistanda, Banqladeşin yaranması ilə nəticələnən hərəkat kimi), separatizm isə insanların milli aristokratiyanın dar milli maraqlarına cəlb olunması və antiimperialist mübarizədən yayınması kimi şərh olunurdu. Qeyd etdiyimiz kimi, marksizmin anlamında «demokratik», «mütərəqqi» hökumətlər sosialist yaxud qeyri-kapitalist yolla gedən ölkələrdə olurdu və buradakı milli hərəkatlar separatistlər adlandırılırdı (Nigeriyada, Biafra, Konqoda Katanqa, Hindistanda, Niderland və başqaları, Anqolada Kabində, Şri-lankada Tamil İlama problemi və s.). Yəni eyni hadisə bir mövqedən milli azadlıq hərəkatı, digər mövqedən isə separatizm kimi qiymətləndirilirdi. Heç şübhəsiz ki, bu da eyni bir hadisənin öyrənilməsi ilə əlaqədar ziddiyyətli məqamlar doğururdu.

Müasir dövrdə aşağıdakı silahlı etnik münaqişələr separatçılıq zəminində hallandırılır: ÇXR ərazisində uyqurlar və tibetlilər, Şərqi Pakistanda benqallar, Hindistanın şimal-şərqində çoxsaylı hərəkatlar, Pəncabda sikxlər, beluclar və puştunlar Pakistanda, İraq, İran və Türkiyədə kürdlər, Efiopiyada eritreylər və somalilər, Cibuti və Keniyada somalilər, Zairdə Şaba regionunun sakinləri, Sudanın neqroid əhalisi, Çadın ərəb icması, Mali və Nigeranın tuareqiləri, Qərbi-Saxaranın əhalisi, Nigeriyada Biofro, İspaniyada basklar və s. Separatist hərəkatlar nadir hallarda öz məqsədlərinə çatırlar, çox vaxt məsələ konkret qrupa muxtariyyətin verilməsi ilə yekunlaşır. Uğurlu misallar çəksək Banqladeş, Eritreya, Balkan ölkələri – Xorvatiya, Sloveniya, Bosniya, Makedoniya, Çernoqoriyanı göstərə bilərik. Ola bilsin ki, 2008-ci ildə bu siyahıya Cənubi Sudan da əlavə olunsun. Cənubi Sudanın neqroid əhalisinin hökumətlə danışıqlarına görə bu il orada bu xüsusda referendum keçirilməlidir.

«Sən qorxaqsan, sən qulsan, sən ermənisən» (A.S.Puşkin); «Erməni gəldi və yeni bədbəxtliklər gətirdi» (Gürcü xalq deyimi); «On barmaqlarını da şam kimi yandırıb erməninin yolunu işıqlandırsan, o sənə sağ ol da deməyəcək» (Qafqaz tatarları deyimi);

«Dar çarpayıda yatıram, tək, qonşu palatada çığırır erməni» (K.Prutkov)

L.V.Veliçko göstərir ki, «çığırmaq» sözü ermənilər üçün son dərəcə tipikdir. Onlar hər yerdə və hər xüsusda çığırmağa meyllidirlər... və onlar nəinki çığırırlar, həm də, başqa xalqları da, avamları və ya satqın adamları da çığırmağa məcbur edirlər.

Bu gün bütün dünyanın Qarabağla əlaqədar erməni mövqeyində

dayanması məhz ermənilərin bu qəbildən olan etnik xüsusiyyətləri ilə bağlıdır. Özlərini yazıq, təzyiqə məruz qalan, sıxışdırılan xalq kimi göstərərək onları yaxşı tanımayanları, avamları, pula satın alınanları onların mövqeyində durmağa təhrik edirlər və buna çox vaxt nail olurlar.

Postsovet məkanında da separatizm özünü ən müxtəlif regionlarda göstərdi. İlk və daha miqyaslı silahlı separatizm Azərbaycanda erməni separatçıları tərəfindən Dağlıq Qarabağ uğrunda Ermənistanın Azərbaycanla müharibəsi zəminində qaldırıldı. Burada artıq hansısa xalqın özünün müqəddəratını həll etmək məsələsi tam tətbiq oluna bilməsə də (çünki ermənilərin qonşuluqda öz milli dövlətləri var), ermənilər məsələni məhz Dağlıq Qarabağ ermənilərinin (guya belə bir ayrıca xalq varmış!) müstəqillik və dövlətçilik istəyi kimi qələmə verməyə çalışırlar. Lakin zaman keçdikcə, məsələnin uydurma qoyuluşu dünya ictimaiyyətinə də aydın olur. Bu, qonşu Ermənistanın torpaq iddiasından başqa bir şey deyildir. Lakin erməni separatizminin mahiyyəti etnopsixoloji aspektdə araşdırılmayana qədər dünya ictimaiyyətinə onların torpaq iddiasının əsl səbəbini çatdırmaq mümkün olmayacaqdır. Burada məşhur rus alimi, jurnalisti, tarixçisi V.L.Veliçkonun «Qafqaz» əsərində erməni etnosuna xas olan xüsusiyyətlərlə əlaqədar gətirdiyi faktlara diqqət yetirmək yerinə düşərdi.

Postsovet məkanında bundan başqa Cənubi Osetiya, Abxaziya, Dnestryanı və Çeçenistan konfliktləri də separatizm hadisələrinə aid edilir.

Amerikan politoloqu D.Qorovits (4) separatizmi (bir qrupun və onun ərazisinin daha iri dövlətin yurisdiksiyasından çıxmasını) irredentizmdən - etnik qohum əhalinin və onun məskunlaşdırdığı ərazinin «etnik yaxın» dövlətə birləşdirilməsindən ayırmağı məsləhət görür (Dağlıq Qarabağ, Cənubi Osetiya, Dnestryanı münaqişələr kimi). Siyasi-hüquqi hadisə kimi separatizm «suverenlik» kimi anlayışla sıx bağlıdır. Çünki suverenlik anlayışı haqqında təsəvvür, onun mənası və məzmunu haqda fikirlərin təkamülündə milli-dövlətçilik quruculuğu problemlərinə yanaşmaların bütün ziddiyyəti əks olunmuşdur. Bu səbəbdən də separatizmin sosial-psixoloji məzmununun açılması separatizmlə suverenlik arasındakı sosial-psixoloji gözləmələrin araşdırılmasını tələb edir.

Xatırladaq ki, suverenlik ideyasının özü hələ orta əsrlərdə məlum idi. Lakin onda o, feodallar tərəfindən şəxsi hüquq və imtiyazların (yəni separatizmin) əsaslandırılması məqsədi ilə istifadə olunurdu. Bu yanaşmaya əks olaraq XVI əsr mütləqiyyətinin ən iri ideoloqlarından biri J.Boden, özünün «Respublika haqqında altı kitab» adlı irihəcmli əsərində ilk dəfə olaraq dövlət suverenliyinin vətəndaş nəzəriyyəsini formulə etdi; bu anlayışı feodal parçalanmasını əvəzləyən mərkəzləşdirilmiş dünyəvi milli dövlət ideyası ilə bağladı. Bodenin dövlət suverenliyi nəzəriyyəsinin mərkəzində bölünməz, daimi, qanundan yüksəkdə duran dövlət hakimiyyəti ideyası dururdu ki, bu dövlət heç bir məhdudiyyət tanımadan vətəndaş və təbəələri üzərində mütləq hakimiyyətə malik idi.

Siyasi suverenliyin mütləqiyyətçi versiyasını ingilis filosofu T.Hobbs da inkişaf etdirdi. Hobbsun fikrincə, insanların «təbii halından» doğan hamının hamıya qarşı müharibəsini aradan qaldırmaq üçün ümumi nizamı təmin edəcək və insanların bütün fəaliyyətini

ümumi xeyirə yönəldəcək dövlət hakimiyyətini təsis etmək zəruridir. Bu cür hakimiyyətə doğru gedən yeganə yol isə bütün «hakimiyyət və qüvvənin» (yəni suverenliyin) bir adama, yaxud insanlar qrupuna ötürülməsidir. Aydındır ki, bu cür yanaşma dövlətin «məqsədəuyğun bütövlüyü» prinsipindən çıxış edir və hadisənin mahiyyəti separatizmi bir hadisə kimi istisna edir.

XVIII əsrdə fransız filosofu J.J.Russonun işləyib hazırladığı siyasi suverenliyin «demokratik variantı» yanaşmasında separatizm probleminə ikili yanaşılır. O, hesab edirdi ki, cəmiyyət daxilində ayrı-ayrı şəxsiyyət və qrupları tamamilə əridən ali hakimiyyət «birləşdirilmiş xalqa» (həmçinin «suveren» adlandırılan) məxsus olmalıdır ki, bu xalq öz növbəsində «kollektiv məxluqu» təşkil edir. Bu «birləşdirilmiş xalq» «Suveren» vətəndaşların şəxsiyyəti və mülkiyyəti üzərində sərhədsiz hakimiyyətə malikdir və hər bir fərd «öz həyatını və mövcudluğunu» ondan alır. Yeni vəziyyətdə fərdi maraq və iradələrin «kollektiv iradəyə» qarşı qoyulmasına icazə verilmir. Və fərdi maraqların artikulyasiyası şəraitində sistemli olaraq vətəndaş cəmiyyətinə yer olmur. Vətəndaş suverenliyini de-fakto inkar edən Russo konsepsiyası həmçinin kiçik cəmiyyətlərin böyük cəmiyyətə təsirinə yol vermir, birləşdirilmiş xalq iradəsinin gerçəkləşdirilməsi üçün ən effektiv mexanizm kimi isə ayrılmaz və bölünməz respublikanı təklif edir. Beləliklə, formal olaraq Russonun yanaşması separatizmi inkar edir (və onunla yanaşı federalizmin özünü də). Lakin məsələyə diqqətlə yanaşdıqda hər şey o qədər də birmənalı görünmür.

Xatırladaq ki, Russo ideyalarından ilhamlanmış Böyük Fransa inqilabı siyasi suverenliyin başlıca mənbəyi olaraq vahid fransız xalqını elan etdi. Siyasi təcrübəyə və nəzəriyyəyə «bir millət-bir dövlət» prinsipi gətirildi. Gələcək separatizm probleminə münasibətdə bu o qədər də təhlükəli deyildi. Çünki bu kontekstdə «millət» dedikdə, etnik birlik tipi deyil, milli dövlətçiliyin müəyyən inkişaf mərhələsində formalaşan vətəndaşlıq birliyi nəzərdə tutulurdu. Lakin suverenlik haqqının «vətəndaşlıq birliyindən» hər hansı etnik icmaya köçürülməsi də tamamilə mümkün idi (çünki Russonun doktrinası qeyri-avropalı xalqlara da bərabərhüquqluluq vəd edirdi və prinsipcə buna qarşı durmurdu). XIX – XX əsrlərin sərhədlərində antikolonial hərəkatın güclənməsi ilə zəruri olaraq «bir xalq-bir dövlət» prinsipi kök atmağa başladı. Asiya və Afrikanın keçmiş metropoliyaların hakimiyyətindən azad olmuş ölkələrində formalaşmış millətlərin varlığından danışmaq çətin olduğu üçün burada aydın şəkildə etnik rəng daşıyan «xalq» «aralıq» anlayışından istifadə olunmağa başladı.

Hələ XX əsrin sonlarında milli suverenlik ideyası xalqların bərabərlik və öz müqəddəratını təyinetmə hüququ kimi yeni prinsiplə tamamlandı (Maraqlıdır ki, Çar Rusiyasında ba prinsipin əsas daşıyıcıları bolşeviklər idi və RSDFP-nin II qurultayında bu prinsipi Rus imperiyası və dövlətçiliyini dağıtmaq məqsədi ilə partiya proqramına daxil etdilər). Bu prinsip BMT-nin Nizamnaməsinə də sonradan yazıldı. Hərçənd ki, bu gün BMT dövlət və millətlərin nümayəndəsi kimi çıxış edir. «Etnik» və «vətəndaş» suverenliyi konsepsiyalarının real birgə mövcudluğu isə praktik müstəvidə çoxlu problemlər yaratmaqla davam etdi.

Birinci Dünya müharibəsindən sonra öz müqəddəratını təyinetmə hüququ millətlər və etnik qruplar üçün rəsmi olaraq tanınırdı. İkinci

Dünya müharibəsindən sonra bu hüquq əsasən kolonial xalqlara tətbiq olundu ki, bu da sonuncuların müstəqillik qazanması ilə nəticələndi. Bu hal tezliklə öz problemliliyini göstərdi. Yuxarıda qeyd olunduğu kimi Afrika ölkələrində zəif tayfa birlikləri özlərini xalq adına çıxaraq dövlətlərinin yaradılmasına nail oldular. Lakin nəticədə belə alındı ki, bu dövlətlər yaşarı olmadılar. Bu isə milli münaqişə və müharibələrə səbəb oldu (kifayət edir ki, 1 milyon insan tələfatına səbəb olmuş 1960-cı illərdə Nigeriyadakı müharibə və bu yaxınlarda Çad Respublikası və Ruandadakı toqquşmalar xatırlansın).

Lakin eyni zamanda qeyd etmək lazımdır ki, XX əsrin ikinci yarısının antikolonial hərəkat liderləri (M.Qandi, C.Nehru, N.Mandela, R.Muqabe) heç vaxt yeni dövlətlərin formalaşdırılmasında «bir xalq (etnomədəni mənada) – bir dövlət» prinsipini qoymurdular. Hindistanda ən azı əlli millət var ki, əksəriyyətinin inkişaf etmiş dili, ədəbiyyatı, tarixi ənənələri mövcuddur. Bu, 50 dövlətin yaranması demək olardı. Lakin antikolonial hərəkat impulsunun inkişafı bir sıra xalqlarda öz «etnik» dövlətçiliklərini yaratmaq həvəsi oyatdı. Bu yanaşmanın qızğın tərəfdarları dövlət suverenliyinin mənbəyi və subyekti olaraq vətəndaşlar birliyi kimi aşkarlanan milləti deyil, öz hüquqlarını «tarixi ərazilərdə» gerçəkləşdirməyə çalışan müəyyən etnik icmanı götürürdülər. Bu tendensiyanın ifadəsi olaraq keçən əsrin 60-80-ci illərində müstəqillik iddiaları ilə bir sıra etnik separatizm hadisələri yarandı (bask, kürd, Şimali İrlandiya, Balkan regionu daxilində alban separatizmi və s.) göstərilən xalqların «milli azadlıq» hərəkatları əvvəllər də mövcud idi, lakin qeyd olunan dövrdə onlar yeni siyasi-hüquqi əsas qazanmış oldular.

Əksər ölkələrin əhalisinin qarışıq tərkibə malik olmasını, bir çox etnik birliklərin müstəqil dövlət olaraq yaşaya bilməyəcəklərini və deməli «bir xalq-bir dövlət» prinsipinin tam mənasında gerçəkləşdirilməsinin qeyri-mümkün olduğunu başa düşərək beynəlxalq ictimaiyyət BMT-nin şəxsində və digər təşkilatlar vasitəsilə separatizm yolunda müəyyən məhdudiyyətlər, hüquqi maneələr qoymağa başladılar. Millət və xalqların öz müqəddəratını həll etmək hüququnu təsdiqləyən aparıcı beynəlxalq institutları prinsipcə bu hüququn ayrılma formasında gerçəkləşdirilməsinin əleyhinə çıxış edirdilər ki, separatist meylləri stimullaşdırmasınlar.

BMT-nin etnik birliklərlə bağlı müasir konsepsiyası öz müqəddəratını separatizm yaratmadan təyin etməyə geniş imkanlar yaradır; ayrılma vasitəsi ilə deyil, digər siyasi formalardan – ərazi, daha çox isə milli-mədəni muxtariyyətdən (milli dil və mədəniyyətlərin inkişafına dövlət zəmanətinin verilməsi ilə), dövlətin demokratikləşdirilməsindən (milli birliklər bu halda qanun və məhkəmə yolu ilə öz hüquqlarını müdafiə edə biləcəklər) və digər formalardan istifadə əsasında. Problemi eyni mövqedən Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Müşavirənin Yekun aktı da (Helsinki razılaşması, 1975) həll etməyə çalışır.

Millətlərarası münaqişələrin həllinin ümumi prinsipləri Müşavirənin Yekun aktında («10 Avropa qadağası») əks olunmuş və bütün iştirakçı ölkələr tərəfindən qanun kimi qəbul edilmişdir. Bu prinsiplər, münaqişələri, hər hansı bir ölkə tərəfindən, yaxud ölkələr qrupu tərəfindən digər ölkəyə qarşı zorakılığı və onun daxili işlərinə qarışmağı mümkünsüz hesab edir. Bu zaman Yekun aktını imzalayan

hər bir iştirakçı ölkənin ərazisi toxunulmaz qalmalı idi. Lakin hər bir xalq öz taleyini özü həll edə bilərdi, bu isə o demək idi ki, hər hansı ərazidə kompakt yaşayan etnik birlik çoxluq təşkil edərsə, o muxtariyyətə ümid bəsləyə bilərdi.

Sovet İttifaqı dağılanda onu separatizm dalğaları bürüdü. Qorbaçov və Lukyanovun motivlərini də başa düşmək olardı. Onlar «kiçik xalqların» separatist hərəkatlarında o zamankı ittifaq dövlətlərinin mərkəzdənqaçma tendensiyalarına qarşı mübarizə üsulu kimi baxırdılar. Məntiq bu idi: «düşmənimin düşməni – mənim dostumdur». Bu formul müharibə işlərində işə yarayır. Sülh işlərində isə tamamilə yararsızdır. Kim ki, öz qonşuları ilə lokal miqyasda bir-birinin hüquqlarına hörmətli münasibət şəraitində yaşamağı bacarmır, çətin ki, o bunu uzaq qonşularla da bacarsın.

Beləliklə, elə təəssürat yarana bilər ki, Afrika və Asiyadan fərqli olaraq Qərbi Avropada milli məsələ öz həllini tapmışdır. Lakin buna baxmayaraq qeqd etdiyimiz kimi Qərbi Avropa ölkələrində ən azı üç separatizm ocağı qalmaqdadır. Özü də ən kəskin, terrosristik formada – İspaniyada bask separatizmi (son 30 illik «azadlıq mübarizəsi» nəticəsində 800 nəfər öldürülmüşdür) və Böyük Britaniyada olster separatizmi (2000-dən çox öldürülmüşdür) və Fransada Korsika separatizmi (rəsmi məlumatlara görə 3000-dən çox qurban var). Bu terrorizm ocaqlarından başqa bir qədər az əhəmiyyətliləri də mövcuddur: İspaniyada katalon və Qali problemi, Fransada breton problemi. Onların fəallarının son illərdə təşkil etdikləri teraktlar «ilk üçlüyə» düşən separatçılarla müqayisə olunan səviyyədə deyildir. Lakin maraqlıdır ki, əgər katalon və Qali separatçılarının fəallığı postfrankist İspaniyasında praktiki olaraq sıfıra enmişdirsə, breton terrorizmi qəfildən dirçəldi; baxmayaraq ki, fransız hakimiyyəti dil siyasətində xeyli liberallaşma həyata keçirdi.

«Milli azadlıq mübarizəsinin» yaşarlığının və obyektiv şəraitlə hesablaşmamasını nə ilə izah etmək olar? Bu mübarizələrin Avropa mühitində (sosial problemlərin kifayət dərəcədə həll olunduğu bir regionda) sosial-psixoloji əsası nədədir? Bu sualların cavabını vermədən gələcək inteqrasiya olunmuş Avropanın taleyini proqnozlaşdırmaq mümkün deyil. Cavab isə görünür ondadır ki, separatizmin və onunla əlaqədar meydana çıxan terrorizmin mənbəyi təkcə ictimai varlıqda deyil, həm də ictimai şüurdadır. Milli hərəkatlar əsasən o zaman və o yerlərdə radikallaşır ki, orada fundamentalist ideyalar cəmiyyətin dominant ideyalarına çevrilirlər.

Müasir dünyada milliliklə «rənglənmiş» terroristik hərəkatlar lokal ideyalardan başlayırlar – hər hansı əraziyə müstəqillik verilməsi, yaxud onun digər dövlətə ötürülməsi ilə. Lakin bu iddialar hakimiyyətin müqaviməti və «xilas olunmalı» əhalinin passivliyi ilə rastlaşınca separatist layihənin təkcə gerçəkləşdirmə metodları deyil, (onlar nümayişkaranə şəkildə qəddarlaşır), həm də məqsədləri dəyişdirilməyə başlayır (8). Dominant motiv artıq «nəyinsə uğrunda mubarizə» deyil (hüquqlar, resurslar, ərazi və s.) «nəyə qarşı mübarizə» məzmununda bilinməyə başlayır. Bu zaman mütləq sosial şər «imperiyası» və onun pisliklərinə qarşı mübarizə dövrü başlayır (siyasi sıxışdırma, iqtisadi istismar, etnik diskriminasiya və s.) konfliktogen müxalifətin real sosial ocaqları «etnos-millət», «əyalət-paytaxt», «marginallıq-isteblişment», «yoxsulluq-varlılıq» və s. getdikcə əriyir və onun yerini «xalq» və

«imperiya» qarşıdurması haqqında universal psixoloji mif tutur. Bu da separatçılara, öz niyyətlərini əsaslandırmağa böyük kömək olur, «kiçik, azadlıqsevər xalqları» öz çoxluğu və təkəbbürü ilə əzən «böyük xalq» (yaxud «imperiya») kifayət qədər inandırıcılığa malik, hətta demək olar ki, kifayət qədər estetik arqumentdir. Və bu inandırıcılıq təbii ki, «böyük xalqın» ölçülərindən düz mütənasib şəkildə asılıdır. Bu səbəbdən də müasir separatçılar öz mübarizələrini «xeyir-şər» toqquşması həddində qloballaşdırmağa meyllidirlər.

İmperiyalar hər yerdə olmuşdur, lakin antiimperiya mifi A.Popovun fikrincə, Avropa şüurunun məhsuludur. Və bu işdə pionerlər – marksistlər olmuşlar. Onlar üçün milli-azadlıq mübarizəsi, xatırlayırsızsa «ən yüksək və son mərhələsinə (imperializmə) çatmış» kapitalizmlə dünyəvi sinfi mübarizənin xüsusi, ikinci dərəcəli aspekti idi. XX əsrin ikinci yarısından avropamərkəzçi imperiyalar dağıldıqca marksist inqilabçılığında antikolonial xətt dominant xəttə çevrilməyə başladı. Maksizmin özü isə maoist və devarist korreksiyaya məruz qalaraq bütün «antiimperialist» hərəkatların (o cümlədən milli separatçıların) fundamentalist ideoloji bazasına çevrildi (xatırlayaq ki, məsələn, kürd separatizmi aşkar marksist mövqeyə keçdi, Fəhlə partiyası kimi çıxış etməyə başladı). Dünyəvi şər olan «imperializmə» qarşı silahlı qarşıdurma inqilabi ictimaiyyət tərəfindən hər hansı lokal azadlığın əldə olunmasının zəruri şərti kimi qavranılmağa başladı.

80-ci illərin sonuna qədər (o zaman «dünyəvi imperiyayla» mübarizəyə qarşı islam fundamentalizmi qalxmağa başladı) dünyadakı vəziyyət Latın Amerikasından Yaxın Şərqə, İspaniyadan Filippinə qədər bu cür idi. Və təsadüfi deyil ki, 60-cı illərin (XX əsrin) sonuna Avropada dövrümüzün terrorizminin iki əsas cərəyanının qızışması başladı: ultrasolçu («sırf marksist») və separatist («milli-azadlıq»). Hərçənd ki, bask və irland separatizmi qədim köklərə malikdir və zahirən lokal motivasiya daşıyırlar. A.Popov onları da sırf etnik, yaxud sosial-iqtisadi xarakterli münaqişə saymır və bütün Avropa separatizminin də XX əsrdə bu və ya digər şəkildə marksizimdən qidalandığını bildirir (8).

Hər halda müəllifin fikrincə, irland «dini» separatizmi kimi bask «milli» separatizmi də XX əsrin sonuna müasir dünyəvi nizama («dünyəvi imperializmə») nifrətlə bərkimiş təkcə ümumavropa deyil, ümumplanetar terrorizmin tərkib hissəsi kimi çıxış etməyə başlamışdır. Və separatizm özünü tənha hiss eləmir. Soldan onları marksist inqilabçılar dəstəkləyirlərsə (onlar özlərini «üçüncü dünya metropoliyasında beşinci sütun» adlandırırlar), sağdan inqilabçı islamçılar dəstəkləyir. Məlumdur ki, onlar Şeytanın məskənində təkcə təbliğatı deyil, həm də texniki hazırlıq aparmaqdan çəkinmirlər (xatırlayırsınızsa 11 sentyabr teraktı qismən Hamburqda hazırlanmışdı).

Beləliklə, demək olar ki, bütün müasir terroristlər əslində dini, milli və hətta ortodoksal-marksist ideologiyası ilə deyil, «antiimperiya» mifi ilə silahlanmışdırlar. Bu gün Avropada bu problemlərin nəzəri həlli üzərində çox beyinlər çalışır. Əlində silahlı milli müqəddəratını təyin etmək istəyən «mübarizlərlə» nə etmək lazım olduğunu isə təklif edə bilmirlər. Güzəşt isə bu məqamda heç də ən təsirli çıxış yolu deyildir.

Hesab edirik bu istiqamətdə başlıca məsələlərdən biri separatizmin sosial-psixoloji mexanizmlərinin, xüsusən də etnik separatizmi qaynaqlandıran milli-mənəvi dəyərləri, etnik stereotipləri, milli

dentiкliyin formalaşması şəraitini və mexanizmlərinin tədqiq edilməsi çox faydalı olardı. Biz də məhz bu qəbildən olan məsələlərin araşdırılmasına çalışırıq.

## ƏDƏBİYYAT


1. Альтермат У. Этнонационализм в Европе. М. 2000.
2. Бунаков М.Ю. Лукин В.Н. Национализм как фактор глобальных рисков: тенденции политического анализа. М. 2006.
3. Гидденс Э. Социология М. 1999. ст.264.
4. Горовиц Д. Ирредентизм, сепаратизм и самоопределение. М., 1993, с.147.
5. Туроу Л. Будущее капитализма. Как сегодняшние экономические силы формируют завтрашний мир. Новосибирск, 1999, ст. 283.
6. Ethnic ideality: Formation and transmission among Hispanies and other minorities / M.E.Bernal, G.P.Kright (eda.) Albany, 1993.
7. Hobsawm E.J. Ethniciti and Nationalizm in Europe Today // An thropology Today, 1992, Vol.8, №1.
8. http: // www. politika . orq /library/ nation/popov.php.
9. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. B., 1991.
10. Байрамов А.С. Психологическая этюди. Баку, 1989.
11. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı, 1996.
12. Bayramov A.S., Əlizadə Ə. Sosial psixologiya. B., 2004.
13. Bayramov Ə.S. Etnik psixologiya. B., 2001.
14. Величко В.Л. Гафгаз: русское дело и междупленные вопросы. Санкт-Петербург, 1904.


## АСПЕКТЫ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО СЕПАРАТИЗМА В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**И.М.БАЙРАМОВ**

### РЕЗЮМЕ

В статье исследуются социально-психологические вопросы сепаратизма. На основе фактического материала в историческом плане анализируются разные взгляды на сепаратизм, рассматриваются различные факторы порождающие этносепаратизм. Указываются некоторые пути разрешения конфликтов, возникающие в этническом аспекте.

## THE SOCIOPHYCHOLOGICAL FACTORS IN THE CONTEXT OF GLOBALIZATION

**I.M.BAYRAMOV**

### SUMMARY

This article surveys, in the context of globalization; the sociophsychological factors that underly separatism. Based on empirical data, diffening wiews on separatism in the historic process are examined. Also, different factors that can se separatism are viewed to the extent to show the means of resolving and manajing ethnic conflict and separatism.